

SALAM CAVADLI

# MÜKAFAT BÖLGÜSÜ

*(yumoreska)*

Bir neçə ay qabaq bəxtimiz yenə üzümüzə güldü. Yaxşı göstəricilərlə başa vurduğumuz yarımilin yekunlarına görə 900 manatlıq mükafat fondu bizi gözləyirdi. Bu xəbəri eşidəndə yaşı 70-i keçmiş İmran kişi də sevincini gizlədə bilmədi. "Ay can!" deyib əl çalmağa başladı. "Ura!" deyənlər də oldu.

İşgüzarlığı, həm də diliacılığı ilə seçilən baş elmi işçi Xəlilov ötəri nəzərlə sevinənləri süzüb dedi:

- Mükafat qabaqcıllar üçündür. Siz niyə vaxtından əvvəl atılıb-düşürsünüz?

"Zavxozumuz" bu eyhamı cavabsız qoymadı.

- Bala, köhnə bazara təzə nırx qoymayacaqsan ki?! Mükafat kollektiv əməyin bəhrəsidir. Ona görə də dövrü-qədimdən bizə verilən mükafatı bərabər bölmüşük. İnciklik salmaq, birini güldürüb, o birini ağlatmaq kişilikdən, adamlıqdan deyil.

- Bəs səhərdən axşamadək göz qırpmadan çertiyojlar üzərində çalışanlarla, laboratoriyada zərərli maddələrlə müayinə aparanlarla iş saatlarını stol arxasında mürgü vuranların əməyinə eyni qiymət verməк kişilikdəndir? - deyə Xəlilov əsəbi halda soruşdu.

İmran kişi nəsə demək istədi. Amma yerinə düşən, təsirli sözlər tapa bilmədiyindən demədi. Əlinin hərəkəti ilə narazılığını bildirib kabinetdən çıxdı.

Mükafat məsələsini həll etmək üçün müdiriyyətin tapşırığı ilə əsasən idarənin "başbilənlər"indən ibarət qeyri-rəsmi komissiya yaradıldı. Tərkibə həmkarlar ittifaqının sədri Canlarov, texniki şöbənin müdiri Xanlarov, kollektivin veteranı İmran kişi, Xəlilov və mən daxil idik. Məsləhət oldu ki, bölgünü müdirimiz Kərimlinin iştirakı ilə aparaq.

Kərimli qonşu rayondan idi. Cəmi 8 ay olardı kollektivimizə rəhbərlik edirdi. Gəncliyinə baxmayaraq, tədbirli idi. İşgüzarlığına da söz olmazdı. Mükafat almağımızda onun böyük zəhməti vardı. Müdir kimi "zəif cəhəti" isə son dərəcə mülayim, rəhmdil olması idi.

Bölgüyə Xəlilov da daxil olmaqla üç ən işgüzar elmi işçinin hər birinə 120 manat, iki texniki işçinin hər birinə 100 manat mükafat yazmaqla başladıq. Qaş-qabaqlarından hiss olunurdu ki, belə bölgü nə Canlarovun, nə də İmran kişinin ürəyincədir. Amma bu təklifi müdir irəli sürdüyündən səslərini içlərinə çəkmişdilər. Qalan mükafat fondunu da adama 50, 40 və 30 manat olmaqla idarənin digər 9 işçisinə böldük.

- Bəs biz adam deyilik? - İmran kişi dözməyib dilləndi.

Canlarov da onu müdafiə etdi:

- Düz deyir, belə olanda idarənin 6 işçisini incik salırıq. Yaxşı olar ki, mükafat hamıya yazılsın.

Xəlilov yenə də özünə sadiq qaldı:

- Ay İmran kişi, sənə nə hesaba mükafat yazılmalıdır?

- Necə yəni nə hesabla, ə?.. İdarənin kilidi, açarı mənəm. Mal-material gətirməsəydim hansı hesaba mükafat alardın?

- Üç balon qələvinin birini, çertiyoj kağızlarının yarısını yolda satmışdın, üzünə diləndilər. Gətirdiyin spirti də nə edirsən, bilənlər bilir. Həmin "xidmətlərin"ə görə sənə mükafat düşürsə, verilsin…

Kərimli onları sakitləşdirdi.

Uzun müddət rəhbər vəzifədə çalışmış, sözünü yeritməkdə səriştəli olan Canlarov bu sakitlikdən istifadə etdi:

- Ay Kərimli, vallah o laborant qız var ha, Nazilə… sonra İsmət, Qulammirzə, xidmətçi Bəsti arvad mükafat almasa, mənim ürəyim ağrıyacaq.

Canlarov elə yazıq görkəm aldı ki, təbiətcə kövrək olan Kərimlinin də əhvalı pozuldu. Amma Qulammirzə ilə Naziləyə mükafat yazılmasına Xanlarov qəti etiraz etdi:

- Nazilə işə bir gün gəlir, üç gün gəlmir. Qulammirzə də iş vaxtının çoxunu anektod deməklə keçirir.

- Naziləyə əri gün vermir. Görmürsünüz, gözünün altı çox vaxt göyərmiş olur? Üstəlik 4 uşaq anasıdır. Hələ odur ki, bir o qədər zülümdən sonra idarədə az-çox iş görə bilir. Onun yerinə hansınız olsa, heç yolunu yeriyə bilməz - Canlarov yenə sızıltı ilə sözünü yeritməyə çalışdı.

- Onun yerinə özün ol! - deyə Xəlilov astadan pıçıldadı.

- Canlarov haqlıdır. Üzünə deyirəm, Xəlilov subay oğlandır, yaxşı da maaş alır. Ona mükafat verilməsi əslində düzgün deyil. Cavandır, pulu cibində çox olsa, pis əməllərə qurşanar. Amma Bəsti arvad ehtiyac içindədir. Bir bölük bala saxlayır.

Burda Kərimli İmran kişinin sözünü kəsdi:

- Əşi, ayıbdır, ağsaqqal vaxtında yalan niyə danışırsan? Bəsti arvad mənim qonşuluğumda, özü də tək yaşayır. Binadan uşağı olmayıb.

…Mükafat bölgüsü beləcə problemə çevrildi. Bir neçə həftə idarədə qan qaralığı hökm sürdü. Mükafat fondu dəfələrlə qıymalandı, pozulub-yazıldı. Nəhayət, bezib oturduq yerimizdə.

Bu günlər axır ki, mükafatımızı aldıq. Qardaş malı kimi bölünmüşdü - 22 işçinin hər birinə 40 manat. Yerdə qalan 20 manat isə bölünüb çoxuşaqlı ana kimi Nazilənin və əmək veteranı kimi İmran kişinin mükafatına əlavə olunmuşdu.

... Mükafat bölgüsündən 3 gün sonra müəssisə ən bacarıqlı mütəxəssisini itirdi. Xəlilov vəzifəsindən azad olunması barədə Kərimliyə ərizə təqdim edib kollektivdən getdi. Səbəb olaraq səhhətində problemlər yarandığını göstərsə də, heç kimə sirr deyildi ki, gənc mütəxəssis yaxşı ilə yarıtmaz əməyə eyni qiymət verildiyi bir kollektivdə işləmək istəmədi!..